# Tacikistanla əməkdaşlıq xarici siyasətimizdə mühüm yer tutur

***Regionda təhlükəsizliyi təmin etmək üçün biz mütərəqqi qüvvələrin səylərini birləşdirməliyik. Tacikistanda və Azərbaycanda çox müsbət inkişaf dinamikası var, sabitlik təmin olunub, iqtisadi, sosial məsələlər həll edilir. Buna görə bizim ölkələrdə təhlükəsizliyə daxili təhdidlər yoxdur. Bizi narahat edən bütün amillər sərhədlərimizdən kənardadır. Buna görə, sərhədlərimizin möhkəmləndirilməsi, habelə regional təhlükəsizliyə töhfəmiz fəal müzakirə etdiyimiz məsələlərdir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Respublikamızın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra sıx əməkdaşlıq etdiyi ölkələrdən biri də Tacikistandır. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ilin mayın 29-da qurulmuşdur. Bakı ilə Düşənbə beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Müstəqil Dövlətlər Birliyi çərçivəsində də sıx əməkdaşlıq edirlər.***



Xatırladaq ki, Tacikistanda təxminən 4 min nəfərə yaxın soydaşımız yaşayır ki, onların bir qismi Mərkəzi Asiyaya, o cümlədən Tacikistana XX əsrin 20-30-cu illərində savadsızlığı ləğv etmək məqsədilə, digərləri isə Stalin repressiyasının qurbanı olaraq göndəriliblər. Azərbaycanlı Mirzə Davud Hüseynov 1930-1933-cü illərdə Tacikistan KP MK-nın birinci katibi olub.

Müstəqillik dövründə isə əməkdaşlığımız daha sürətlə inkişaf etmişdir. Həm Bakıda, həm də Düşənbədə əminliklə bildirilir ki, tərəflər arasındakı əməkdaşlığın çox böyük potensialı var. Dövlət başçılarının qarşılıqlı səfərləri, parlament sədrlərinin ənənəvi ünsiyyəti və müxtəlif hökumət qurumlarını təmsil edən rəsmi şəxslərin təmasları bu əməkdaşlığın daha da genişləndirilməsinə stimul verir. Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərini əhatə edən altmışa qədər sənəd imzalanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlini qəbul edərkən bu səfərin də ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət göstərəcəyinə əminliyini bildirmişdir. Prezident, parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirmiş, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğunu demişdir.

Qeyd edilmişdir ki, dost ölkə rəsmisinin səfəri çərçivəsində parlamentlərimiz arasında əməkdaşlıq haqqında sazişin və Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanması dostluq əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirilməlidir.

Xatırladaq ki, 2018-ci il avqustun 10-da Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Bakıya səfəri çərçivəsində aparılmış müzakirələr və imzalanmış sənədlər əməkdaşlığın genişləndirilməsinə növbəti stimul olmuşdur. Dövlət başçımız o vaxt demişdi ki, Tacikistan Prezidentinin Azərbaycana rəsmi səfəri münasibətlərimizin inkişafında mühüm mərhələdir: "Əməkdaşlığın möhkəmlənməsinə, qarşılıqlı fəaliyyətin genişlənməsinə ölkələrimizin sadiq olduğunu bir daha təsdiq etdik və ticari-iqtisadi münasibətlərin möhkəmləndirilməsi üçün mühüm yolları müəyyənləşdirdik… Biz bu gün Tacikistanın hörmətli Prezidenti ilə Birgə Bəyanat imzaladıq. Bu, bizim iradəmizi, qarşılıqlı fəaliyyətə yönələn səylərimizi, beynəlxalq vəziyyətlə bağlı məsələlərdə ümumi yanaşmanı, həmçinin Tacikistanın siyasəti çərçivəsində BMT-də su ehtiyatları ilə bağlı irəli sürdüyü çox mühüm təşəbbüslərə Azərbaycanın dəstəyini əks etdirən olduqca vacib siyasi sənəddir. Biz bu bəyanatda mahiyyət etibarilə münasibətlərimizin inkişafının əsas yollarını müəyyən etdik. Mən çox şadam ki, belə bir bəyanat bizim gələcək fəaliyyətimizin təməli olacaq".

Xatırladaq ki, Azərbaycanla Tacikistan nəqliyyat infrastrukturunun inteqrasiyası, sənaye istehsalında kooperasiya, xarici bazara çıxış ilə bağlı mühüm razılaşmalara gəliblər. Belə ki, Azərbaycan son zamanlar nəqliyyat infrastrukturunun olduqca şaxələnmiş sistemini yaradıb. Dövlətimiz böyük sərmayələr yatıraraq, yeni nəqliyyat yolları yaradıb. Asiya ilə Avropa arasında ən qısa yol bu gün Azərbaycandan keçir. Avtomobil yollarının, yeni aeroportların, Xəzərdə iri ticarət limanının inşasına da sərmayələr qoyulub. Azərbaycan bütün bunları öz dostlarına, Mərkəzi Asiyadakı tərəfdaşlarına təqdim edir…

Martın 3-də Milli Məclisin sədri Sahibə Qafarova da ölkəmizdə rəsmi səfərdə olan tacik həmkarı Rüstəm Emoməli ilə görüşüb və iki ölkənin diplomatik əlaqələrinin qurulmasının 30 illik yubileyinin tamam olduğunu qeyd edərək, siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafından danışıb.

Qeyd edilib ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin xüsusi əhəmiyyəti vardır. Parlament sədri, həmçinin imzalanan sənədlərin əhatə dairəsinin genişləndirilməsi üçün daha böyük potensialın olduğunu vurğulayıb.

Dost ölkələrin parlament sədrlərinin görüşündə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər barədə geniş söz açılıb. Diqqətə çatdırılıb ki, 2020-ci ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun şücaəti sayəsində Ermənistanın 30 illik işğalına son qoyaraq öz ərazisini işğaldan azad edib, bununla da ərazi bütövlüyünü və BMT-nin 4 qətnaməsinin icrasını təmin edib. İndi ölkəmiz bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunmasında maraqlıdır və bu istiqamətdə lazımi addımlar atır. Qısa müddət ərzində çox böyükhəcmli işlər görülüb, ərazilərin minalardan təmizlənməsi işinə başlanıb, yeni nəqliyyat infrastrukturu yaradılıb. Azərbaycan həmin ərazilərdən məcburi köçkün olmuş vətəndaşlarının tezliklə öz evlərinə qayıtmasına çalışır. İnanırıq ki, Ermənistan reallığı düzgün qiymətləndirəcək və tezliklə iki ölkə arasında sülh sazişi imzalanacaqdır.

Parlament sədrlərinin görüşündən sonra Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Ali Məclisinin Milli Məclisi arasında Əməkdaşlıq haqqında Saziş imzalanıb. Ertəsi gün isə paytaxtlarımızı bir-birinə daha da yaxınlaşdıracaq bir sənədin imzalanması mərasimi olub. Belə ki, nümayəndə heyətinin Bakı Şəhər İcra Hakimiyyətində ŞİH başçısı Eldar Əzizovla görüşü keçirilib. Eldar Əzizov Prezident İlham Əliyevin səyləri ilə Bakı şəhərinin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyindən, şəhərdə aparılan genişmiqyaslı quruculuq, abadlıq işlərindən söz açıb və bu səfərin hər iki paytaxt şəhərləri arasında bütün sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni imkanlar açacağına əmin olduğunu bildirib. Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında Memorandum imzalanıb və xatirə hədiyyələri təqdim olunub.

… Bu qeydlərimizi dövlət başçımızın hələ 2018-ci ildə Tacikistan Prezidenti ilə birgə mətbuat üçün verdiyi bəyanatdan seçilmiş cümlələrlə tamamlayırıq: "Bakı –Tbilisi – Qars dəmir yolunun istifadəyə verilməsi, eləcə də böyük Ələt ticarət limanının tikintisi bu dəhlizin yüklərin ixracı üçün istifadəsinə tamamilə yeni imkanlar açır. Təbii ki, biz Tacikistandan yüklərin artacağına ümid bəsləyirik və bu barədə razılaşmalar əldə olunub. Biz Azərbaycan ərazisindən keçməklə beynəlxalq bazara çıxarılacaq tranzit yüklərin əhəmiyyətli dərəcədə dəfələrlə artmasını gözləyirik. Biz humanitar əməkdaşlıq, təhsil, mədəniyyət sahələrində, kənd təsərrüfatı ilə bağlı məsələləri müzakirə etdik. Biz sıx qarşılıqlı fəaliyyət məsələlərinin işlənib hazırlanması üçün xüsusi nümayəndə heyətlərinin göndərilməsini razılaşdırdıq. Başqa sözlə, müzakirə etdiyimiz bütün məsələlər üzrə bizim aramızda tam anlaşma mövcuddur".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 5 mart.- S.4.